

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# "BİR TƏZƏ SÖZ QALA"

**Murad Qoçuoğlu "Bir az gecikəndə" adlı ilk şeirlər kitabı ilə oxucuların görüşünə gəlib və elə bilirəm, bu görüş hər iki tərəfin ürəyincə olub. Çünki kitabda toplanan şeirlər yetərincə duyumlu şeirlərdir və biz bunun şahidi də olduq ki, "Natəvan" klubunda həmin şeirlər haqqında xoş sözlər deyildi. Məlum oldu ki, Murad Qoçuoğlu çoxdandı şeir yazır, amma yaşı əllini keçəndən sonra özündə bir cəsarət hiss edib, yazdığı şeirləri bir kitaba cəm edib. Bu, əlbəttə, Muradın şeirə məsuliyyətlə yanaşması, bu yolda heç kimi təkrar etməyib yalnız ÖZÜ OLMAQ istəyi ilə bağlıdır. Kaş şeirə ötəri həvəs ucundan gələn "şairlər"-də də belə bir məsuliyyət duyğusu olaydı.**

**Elə söz deyəsən, təzə, tər olsun,**
**Duyğular dil aça sözündən sonra.**
**Səni yaşatmağa, xatırlamağa,**
**Bir təzə söz qala özündən sonra.**

"Bir təzə söz qala"- Murad Qoçuoğlunun təzə söz deməyə, hamının üz tutduğu mövzularda fərqli yanaşma tərzinə meyl etməsi bir çox şeirlərində aşkar nəzərə çarpır. Elə birinci şeirində deyir ki: Vətən ürəyimdən başlanır mənim. Ürəyi Vətənlə qiyas eləmək bizə təzə görünür. Şeirdə üç obraz qoşalaşır: Vətən, Torpaq, bir də onların məskəni Ürək. Bu üç obraz bir-birilə o qədər bağlıdır ki, birinin itkisi ilə necə böyük faciə yaranarmış. Torpaq əldən gedirsə, bu, Vətən üçün müsibətdir. Ürək (əslində, İnsan) bu dərdi daşıya bilərmi? İctimai-siyasi motivi bədii təcəssümə çevirmək vətənpərvərlik missiyasına xidmət edir.

**Elə arzular var, qovuşmaq olmur,**
**Ümidim, gümanım hədərdi bəlkə.**
**Torpağın üstünə səpdiyim arzu,**
**Min il bundan sonra cücərdi bəlkə.**

**Ümidlə əkdinmi bircə toxumu,**
**Daşda, qayada da bitənmiş, demə.**
**Sevinci, kədəri, qayğılarıyla,**
**Bir parça ürəyim Vətənmiş demə.**

**Mənim ürəyimdə torpaq gücü var,**
**Hər dərdə, ağrıya dözümü çatır.**
**Orda Arazboyu uzanan həsrət,**
**Orda Xudafərin harayı yatır.**

Vətənin birliyi ideyası bu şeirdə öz bədii ifadəsini tapıb, misralar, bəndlər arasında sanki bir körpü uzanır, o tayıbu tayı birləşdirir. Kitabdakı ikinci şeir də Vətənə həsr olunub - "Vətən, bağışla bizi". Bu dəfə Vətənə oğulluq keçən insanların Vətən qarşısında günahları etiraf olunur. Bu dünyada isə günahsız adam tapılmaz. "Dünyada qalıbsa günahsız adam, İlahi, sən bizi ona bağışla". Muradın əksər şeirlərinin məzmunu etiraflar üzərində qurulub. "Etiraf-vicdanın nəğməsi, neyi, Hər kəsin özündən öc almasıdır" (B.Vahabzadə). Bu etiraflar keçilmiş, təbii ki, hələ sona çatmamış bir ömrün etirafları, daha doğrusu, mənəvi aləmin borc-məsuliyyət duyğusunun səslənməsidir. İnsan öz Tanrısı qarşısında ya da mənsub olduğu Vətəni qarşısında hesabat verir. Özü də "mən" diliylə yox, "biz" lisanında. Yaxşılar, yamanlar çeşidlənir, günahlar sıralanır, suallar yağdırılır və bu sualların birbaşa cavabı yoxdur.

**Gərək vədəsində çatılsın ocaq,**
**Vaxtsız yanan ocaq, vaxtsız söndümü?**
**Ovunu pusquda güdən yalquzaq,**
**Özü ov olmayıb, geri döndümü?**

**Yurduna vəfalı olan sərçələr,**
**Gah gözə görünüb, gah itirdimi?**
**Çalışıb-çarpışan boz ana sərçə,**
**Körpə balasına dən gətirdimi?**

Bu şeirdə hər bənd alleqoriya üzərində qurulub. Əslində, insandan danışılır, amma "köçürülmə" fəndi ilə

Murad Qoçuoğlunun şeirlərində bədii təzad silsilələri ardıcıl düzümü ilə diqqəti cəlb edir. Dünyanın, təbiətin, tarixin, cəmiyyətin, insan aləminin təzadları, müsbət-mənfi halları bir-birinin ardınca sıralanır. Bu təzadlarda "dəli olmayanın ağılı yoxdur", "ağlamağım əzab, gülməyim əzab" "mən gündə yüz dəfə dəli oluram", "dəlilər başıma yığılır elə, ağıllı adamlar öldürür məni", "hər gün bir imtahan, hər gün bir sınaq oturub dərdləri yazıram hər gün" etirafları insanın bu dünyada boynuna götürdüyü yükün əzablarından soraq verir. Amma əzab yoxsa, həyat da yoxdur - şairin gəldiyi qənaət, axtardığı həqiqətin sonu bu nöqtədədir.

"Hər təzə günahım bir təzə dərddir, Məni günahlardan qoru, Allahım". Muradın lirik qəhrəmanı-müasir gerçəkliyin təzadları içərisində başını itirmir, sadəcə, həyatın bu amansız gedişlərinə etiraz edir:

**Dərddən bezar ürək kimi,**
**Nakam qalan dilək kimi,**
**Vaxtsız açan çiçək kimi,**
**Solanları görmədinmi?**

**Elin sirin yada verən,**
**Düşmənlərə fayda verən,**
**Həqiqəti bada verən**
**Yalanları görmədinmi?**

**Dolaşıb kəndi-obanı,**
**Ortaya salıb davanı,**
**Gündə yüz yol yüz havanı**
**Çalanları görmədinmi?**

Murad Qoçuoğlunun şeirlərində həyatın, gerçəkliyin, yaşadığı mühitin hər cür naqislikləri, mənfi halları ilə üz-üzə gələn, baş verən hadisələrə soyuqqanlı yanaşmayan müasirimizin obrazı ilə qarşılaşırıq. O, sevincdən, bolluqdan, nəşədən yazmır, dərdlərdən, cəmiyyəti, mühiti haldan-hala salan ictimai ya mənəvi bəlalardan söz açır.

Hər şeyin su qiymətinə satıldığı bir dövrün insanlara verdiyi əzablardan danışır. Arxasınca atılan daşların cəfasından yazır.

Amma bu daşlar ömrünü bihudə keçirməyən və onlara öyrəncəli bir mərdin qürurunu, mənliyini heçə endirə bilməz, çünki: "Arxamca atdığın o daşlarla sən, Məni sabahıma hazırlayırsan".




Muradın lirik qəhrəmanı son dərəcə həssas bir insandır. Və elə həssasdır ki üzü üstə körpə bir ağacın düşdüyünü görəndə içindəki fəryad dilə gəlir:

**Bir ağac ömrünə qəsd eləyənin**
**Bəs niyə əlləri daşa dönməyib?**
**Budanmış budaqda tumurcuqların**
**Yaşamaq ümidi hələ sönməyib.**

**Niyə yetəmmədim bu haraya mən,**
**Gecikib sonradan elə yanırıq.**
**Bəzən gecikəndə harayımıza,**
**Beləcə kökündən baltalanırıq.**

**Gecikdim, haraya yetə bilmədim,**
**Körpə bir ağacdan çatdılar ocaq,**
**Yaşıl budaqları baltaladılar,**
**Məni bu ağacın ahı tutacaq.**

Muradın lirik qəhrəmanının içində bir filosof əyləşib - bu filosof fəlsəfə elmi ilə məşğul olan, dünyanın gedişatını elmi postulatlarla şərh edən alim deyil. Xalqın əsrlər boyu xeyir-şər, işıq-zülmət, yaxşılıq-yamanlıq, həyat-ölüm, varlıq-yoxluq anlayışları ilə sadə dildə danışan xalq adamıdır və Murad o adamın dili ilə dünənin, bu günün həqiqətlərini bizə çatdırır.

Deyir ki: "Nəfsinə qul olanların, nə imanı, nə dini var". Deyir ki: " Mayasız xəmirinə şükür, Torpaqda qəbrinə şükür, İlahi, səbrinə şükür, Yiyəsi yoxdu dünyanın" və s. Bu "filosof" ölümdən qorxmur, nikbindir, həyatı sevir, yaşamaq, var olmaq, özünün mənəvi mövcudluğunu sübut etmək istəyir:

**Dağ olarmı heç qayadan?**
**Tanrımdır hər yaradan?**
**Niyə qorxum bu dünyadan,**
**Son ucunda ölümdürsə**

Xalq inanclarına, eldən gələn həyati qənaətlərə, min illərin sınağından keçən öyüdlərə iman gətirən bu insan həm də ustadların-Ələsgərin, Xəstə Qasımın, Qurbaninin mənəvi dərslərini də unutmur. Muradın bir çox şeirləri qoşma formasındadır və sevindirici budur ki, o, qoşmanın şəklini çəkmir, özünü yaratmağa çalışır, yəni qoşmada təzə söz deməyə can atır, buna nail olan nümunələr az deyil.

**Ötüşər fəsillər, ötüşər zaman,**
**Gəlib qərinələr dolanıb gedər.**
**Dünyadan, həyatdan doymayan insan,**
**Yeri, asimanı fırlanıb gedər.**

**Baxın nizamına, düzümünə siz,**
**Dünyada heç bir şey deyil sərfəsiz,**
**Kimi köçüb gedər vaxtsız-vədəsiz,**
**Kimi bu həyatdan usanıb gedər.**

Murad Qoçuoğlunun sevgi şeirləri də fərqli çaları ilə seçilir. Digər mövzuda yazdığı şeirlərindəki o ciddi poza, təzadlı ahəng sevgi şeirlərində də nəzərə çarpır.

Bu şeirlərdə ayrılıq-hicran motivləri o qədər də qabarıq görünmür, amma lirik qəhrəman sevginin, o ülvi hissin məna və mahiyyətinə baş vurur. Deyir ki:

**Səni haraylasam ən son anımda,**
**Bu son harayıma sən çatarsanmı?**
**Bir qəfil xəbərlə döyülsə qapın,**
**Kövrək ürəyinlə dil taparsanmı?**

Ümumiyyətlə, Murad Qoçuoğlunun şeirlərində həyata ağlın həqiqətləri ilə boylanmaq meyli daha güclüdür. Təbii ki, ağıl hissiyyatla birləşir, onu tamamlayır.

Onun şeirlərinin dilinə heç bir iradımız yox. Gələcək şeirləri də belə səlis və rəvan dillə yazılacaqsa, daha çox sevilər. Ən ümdəsi isə hər şeirdə bir təzə söz qala...